**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA**

**ALİ ATTESTASİYA KOMİSSİYASI RƏYASƏT HEYƏTİNİN**

**10 mart 2023-cü il tarixli**

**QƏRARI**

"Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər" yeni redaksiyada təsdiq edilsin (əlavə edilir).

**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan**
**TƏLƏBLƏR**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 10 mart 2023-cü il tarixli qərarı ilə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər" yeni redaksiyada təsdiq edilmişdir.

1. Dövri elmi nəşrin dövlət qeydiyyatından keçməsi
2. Dövri elmi nəşrin Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN) alması
3. Dövri elmi nəşrin elektron variantının E-ISSN kodu aması və internetdə yerləşdirilməsi
4. Nəşr edilən məqalələr üçün Rəqəmsal Obyekt İdentifikatorunun (DOI – Digital Object Identifier) alınması
5. Dövri elmi nəşrin internet saytının mövcud olması və sayt üzərindən məqalə qəbul etmək imkanının olması
6. Dövri elmi nəşrin saytı, redaksiyasının poçt ünvanı, telefon nömrəsi və elektron poçt ünvanının qeyd edilməsi
7. Dövri elmi nəşrin təsisçi(lər)inin qeyd olunması
8. Dövri elmi nəşrin təsis edildiyi müəssisənin elmi fəaliyyət istiqamətlərinə, yüksək-ixtisaslı elmi kadr potensialına, mövcud elmi infrastrukturuna, elmi tədqiqat və mütəxəssis hazırlığı istiqamətinə uyğun olması
9. Dövri elmi nəşrin redaksiya heyətinin olması
10. Müxtəlif elm sahələri üzrə məqalələr dərc edən dövri elmi nəşrdə hər bir elm sahəsinin ayrıca redaktorunun qeyd edilməsi
11. Dövri elmi nəşrdə məqalələrin dərc edildiyi, dillərin hər birində məqalə müəllifləri üçün qaydaların müəyyən edilməsi
12. Xarici dildə məqalələr dərc edən dövri elmi nəşrin redaksiya heyəti üzvlərinin sırasında dərc olunan məqalənin aid olduğu elm sahəsi üzrə müvafiq xarici dili bilən mütəxəssisin təmsil olması
13. Dövri elmi nəşrdə redaksiya heyəti üzvlərinin hər birinin elmi dərəcəsi və elmi adının, adı, atasının adı və soyadının qeyd olunması
14. Uyğun elm sahələri üzrə mütəxəssislərdən ibarət anonim rəyçilərin olması
15. Müxtəlif elm sahələri üzrə məqalələr dərc edən dövri elmi nəşrdə həmin sahəyə uyğun bölmələrin olması
16. Redaksiyaya daxil olan məqalələrdə plagiatın mövcudluğunun yoxlanılması

17. Dövri elmi nəşrdə öz profilinə uyğun məqalələrin dərc edilməsi
18. Dövri elmi nəşrdə onun dövriliyinin göstərilməsi və gözlənilməsi
19. Hər bir məqalənin yeni səhifədə verilməsi və səhifənin yuxarısında dövri elmi nəşrin adının, ilinin, cildinin, sayının, məqalənin başlanğıc və son səhifələrini bildirən başlığın olmasının tələblərinə riayət edilməsi
20. Məqalələrdə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı göstərilməsi
21. Elmi məqalələrin sonunda elm sahəsinin və məqalənin məzmununa uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticənin, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsinin və s. aydın şəkildə verilməsi
22. Məqalədə istifadə edilmiş ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumatın, mənbələrin elmi məqalələr üçün biblioqrafik təsvirə uyğun verilməsi
23. Ədəbiyyat siyahısında əsasən son 10 ildə nəşr edilmiş elmi məqalələrə, monoqrafiyalara və digər etibarlı elmi mənbələrə, istinadlara üstünlüyün verilməsi
24. Azərbayacan dilində olan məqalələrin xülasəsinin rus və ingilis dillərində, rus dilində olan məqalələrin xülasəsinin Azərbaycan və ingilis dillərində verilməsi
25. Hər bir xülasədə məqalənin adı, müəllif(lər)in tam adının göstərilməsi
26. Məqalələrin müvafiq dillərdə olan eynimәzmunlu xülasələrinin məqalələrin məzmununa uyğunluğunun olması
27. Xülasələrin yazıldığı dillərdə açar sözlərinin verilməsi
28. Məqalələrdə müəllif(lər)in gəldiyi elmi nəticənin, işin elmi yeniliyinin, tətbiqi əhəmiyyətinin və s. xülasədə yığcam şəkildə öz əksini tapması
29. Məqalələrin elmi və qrammatik baxımdan ciddi redaktə olunması
30. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar və açar sözlərinin göstərilməsi
31. Məqalələrin redaksiyaya daxilolma, təkrar işlənməyə göndərilmə və çapa qəbul olunma tarixlərinin məqalənin sonunda göstərilməsi

Qeyd:
Yeni dövri elmi nəşrin və ya son siyahıya daxil edilməmiş dövri elmi nəşrin «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı»na daxil edilməsi üçün həmin dövri elmi nəşrin son on iki ay ərzindəki axırıncı iki nömrəsi müəssisə rəhbərinin və ya baş redaktorun müraciət məktubu ilə birlikdə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasına təqdim edilməlidir.